# Qəbələnin xalq kollektivləri

**Qəbələ Rayon Mədəniyyət və Turizm Şöbəsi müxtəlif mövzuları və sahələri əhatə edən mədəni-kütləvi tədbirlərin keçirilməsi, tarixi abidələrin qorunması və təbliği, milli adət-ənənələrin təbliği, Azərbaycan Respublikası Prezidentinin və Nazirlər Kabinetinin müvafiq sərəncamları ilə təsdiq olunmuş Dövlət proqramlarının icrası və s. bu kimi aidiyyatı tədbirlərin həyata keçirilməsi işləri ilə bərabər folklor və teatr sahəsi üzrə də ardıcıl işlər həyata keçirir.**

**Bu sahə üzrə aparılan məqsədyönlü işlərin uğur qazanmasında xüsusilə xalq kollektivlərinin rolu böyükdür. Bu baxımdan Rayon Mədəniyyət Evində fəaliyyət göstərən C.Məmmədquluzadə adına Xalq Teatrı və Bum qəsəbə Mədəniyyət Evində fəaliyyət göstərən "Zopu-zopu" etnoqrafik folklor rəqs ansamblı istər rayon, istərsə də ümumrespublika tədbirlərində, müsabiqə və festivallarında yüksək səviyyədə çıxış edir.**

Adları qeyd olunan kollektivlərin tarixi uğurları, repertuarı, ümumiyyətlə kollektivlər barədə məlumatları nəzərinizə çatdırmaq istərdik. Qəbələ Rayon Mədəniyyət Evində fəaliyyət göstərən C.Məmmədquluzadə adına Xalq Teatrı yaranmamışdan əvvəl istedadlı rejissor və aktyor Şirin Abdullayev xalq içərisindən dərnəyə topladığı həvəskar aktyor ansamblı ilə 20-dək pyesi tamaşaya qoymuş və uğur qazanmışdır. Rayonda xalq teatrının əsası da məhz Ş.Abdullayevin səyi ilə 1960-cı ildə qoyulur.

1962-ci ildə rejissor Ş.Abdullayev A.Məmmədovun "Həmyerlilər" əsərini tamaşaya qoyur və tamaşa çox böyük uğur qazanır. Həmin ilin 25 iyununda Azərbaycan SSR Nazirlər Sovetinin sərəncamı ilə teatr xalq teatrı adını alır və ona C.Məmmədquluzadənin adı verilir. Teatrda C.Cabbarlının "1905-ci ildə", "Yaşar", "Od gəlini", "Oqtay Eloğlu", "Solğun çiçəklər", "Aydın", "Almaz", S.Rəhmanın "Toy", H.Cavidin "İblis", V.Şeksprin "Hamlet", C.Məmmədquluzadənin "Ölülər" və s. pyeslər səhnə təcəssümünü tapmışdır.

Səhnəyə qoyulmuş tamaşalarda Kamal Osmanlı, Sırac Gəncimov, Əhməd Bəkirov, Təmi Hacıyev, Tamara Cəfərova, Əmrah Səlimov, Eldəniz Manafov, Əsmayə Osmanova, Firuzə Mikayılova kimi istedadlı aktyor ansamblı çıxış etmişdir.

C.Məmmədquluzadə adına Xalq teatrı bu gün də əzmlə işləyir. Rejissor F.Sərkərovun səyi ilə teatrda son dövrlərdə İ.B.Qutqaşınlının "Rəşid bəy və Səadət xanım", A.Quliyevin "Qoz əhvalatı", A.Kuprinin "Olesya", K.Nemətin "Təzə xadimə" pyesləri səhnəyə qoyulub.

Teatr sonuncu dəfə 2009-cu ildə Şəkidə keçirilən ümumrespublika xalq teatrlarının baxış festivalında çıxış edib. Hal-hazırda teatrın 12 üzvü var. F.Mustafanın "Sənə sözüm var" pyesinin üzərində məşqlər davam etdirilir.

Bum qəsəbə Mədəniyyət Evində fəaliyyət göstərən "Zopu-zopu" etnoqrafik folklor rəqs ansamblı xalq oyunlarını, deyimlərini, musiqisini özündə əks etdirir. Ansambl 1980-ci ildə yaradılmışdır.

- 1989-cu ildə isə ansambla xalq kollektivi adı verilmişdir.

Ansambl yarandığı gündən bəri aşağıdakı müsabiqə və festivallarda iştirak etmiş və müvəffəqiyyət qazanmışdır:

- 1982-ci ildə Moskvada, SSRİ-nin yaradılmasının 60 illiyi münasibətilə ümumittifaq festival;
- 1985-ci ildə Moskvada qələbənin 40 illiyi münasibətilə bədii özfəaliyyət bayramı;
- 1987-ci ildə II ümumittifaq xalq yaradıcılığı festivalı;
- 1988-ci ildə Moskva şəhərində Bəstəkarlar İttifaqının çağırışına əsasən ümumittifaq folklor kollektivinin müsabiqəsi və s.

1988-ci ildə "Gülüstan" folklor teatrının tərkibində Fransanın Manquem, Konfalan və Lion

şəhərində keçirilmiş ümumdünya folklor festivalında çıxış etmiş və bürünc medala layiq görülmüşdür.

1989-cu ildə Volqoqrad şəhərinin 400 illik yubileyi şənliyinə dəvət almışdır. 1989-cu ildə Türkiyədə keçirilmiş folklor festivalında iştirak etmişdir.

1990-cı ildə Urfa şəhərində keçirilmiş Azərbaycan ongünlüyündə çıxış etmişdir. Hər bir festival və müsabiqədə ansambl diplom və fərmanlara layiq görülmüşdür.

Ansamblın repertuarı aşağıdakı oyunlar və musiqilərdən ibarətdir:

1. "Zopu oyunu"- zəncirvari hərəkət, leyqala, ənzəli oyunu, üçlü fırlanma və iti rəqslər.
2. "Dəvə oyunu"-yallının gedişi, uşaq oyunu, nehrə oyunu, sümüklə oyun, odla oyun, çobanlar rəqsi və igidlərin iti hərəkətləri.
3. "İgidlər rəqsi"-meyxana ritmləri, rəqsin gedişi, çomaqlarla vuruş, disk üzərində rəqs.
4. "Xanım gəldi" - rəqsin girişi, xanəndə oxuyaraq xanımın rəqs etməsi və nəlbəki ilə rəqs.
5. "3 oğlan və bir qız" məzəli etnoqrafik rəqsi.

**Hal-hazırda ansamblın 12 üzvü var. Ansambl rayonda keçirilən mədəni tədbirlərdə fəal iştirak edir. Artıq 2 ildir ki, Bakı şəhərində keçirilən ümumrespublika "Novruz" bayramı tədbirində ansambl uğurla çıxış edir və yüksək fəallıq göstərir.**

**Anar RÜSTƏMLİ,**
***Qəbələ Rayon Mədəniyyət və Turizm Şöbəsinin inspektoru***